BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

№3 *Humanitar elmlər seriyası* 2005

# ORTA MƏKTƏBİN AZƏRBAYCAN TARİXİ KURSUNUN İNTERAKTİV TƏLİM METODU İLƏ TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ SİYASİ MƏDƏNİYYƏTİN FORMALAŞDIRILMASI

**M.M.ƏMİROV**

Azərbaycan bu gün – XXI əsrin başlanğıcında tarixin çətin, mürəkkəb, keşməkeşli bir dövrünü yaşayır. Bu bir partiyalı sistemdən demokratiyaya keçid dövrüdür. Demokratik, hüquqi, dünya sivilizasiyasının tələblərinə uyğun, tam azad, müstəqil cəmiyyət quruculuğunda Azərbaycanın yüksək siyasi mədəniyyətə malik vətəndaşlara böyük ehtiyacı var. Tarix sübut edib ki, əski zamanlarda təbiəti dərk etməyə cəhd dini və mifologiyanı, cəmiyyət amili ilə hesablaşma zərurəti isə siyasi elmləri, siyasi mədəniyyəti yaradıb. Siyasi mədəniyyət mənəvi tərbiyənin bir komponenti olmaqla yanaşı, cəmiyyətdə mövqe tutmaq, onu dərk etmək istəyən, öz mövcudluğunu təmin etmək üçün mübarizə aparan insanın əqli nəticələrinin bir növ məcmusudur.

Problemin aktuallığı bir də onunla müəyyən olunur ki, siyasi mədəniyyəti təşkil edən sərvətlər, siyasi yönümlər, normalar və stereotiplər siyasi sistemin formalaşmasına və saxlanmasına imkan yaradır. Siyasi sistemin formalaşmasına təsir göstərən mədəni sərvətləri cəmiyyət üzvləri, o cümlədən məktəblilər çox mənimsəsələr, cəmiyyətdə sabitlik də bir o qədər yüksək olar.

Respublikamızın hazırkı durumu gənc nəslin təlim-tərbiyəsi ilə məşğul olanlardan Azərbaycanı dünyanın ən inkişaf etmiş demokratik dövlətlərindən birinə çevirməyə qadir olan vətəndaşlar tərbiyə etməyi tələb edir. Bu problemin vacibliyi Azərbaycan Respublikasının Konstitusiyasında göstərilmişdir: «Hər bir vətəndaşın təhsil almaq hüququ vardır. Dövlət pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir. Təhsil sisteminə dövlət tərəfindən nəzarət edilir. Maddi vəziyyətindən asılı olmayaraq, istedadlı şəxslərin təhsilini davam etdirməsinə dövlət zəmanət verir. Dövlət minimum təhsil standartlarını müəyyən edir.[1]

Dar mənada siyasi mədəniyyət bu və ya başqa bir fərdin, milli yaxud siyasi birliyin siyasət və siyasət dünyası, onun qanunauyğunluqları və fəaliyyət qaydaları haqqında təsəvvürlərinin məcmusudur.

Geniş mənada siyasi mədəniyyət nəsillər boyu formalaşan si-

---

[1] Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «Qanun», 2003, s.42.

yasi ənənələri, siyasi təcrübənin qüvvədə olan normalarını, ictimai-siyasi təsisatların qarşılıqlı münasibətəlrinə aid olan ideyaları, кonsepsiyaları və inamları, insanların mövcud olan qaydalara münasibətini müəyyən edən prinsipləri və oriyentasiyaları əhatə edir. Beləliкlə, siyasi mədəniyyət haкimiyyət və vətəndaş arasındaкı qarşılıqlı münasibətlərə aid olan mövqeləri, sərvətlərin və davranış məcəllələrinin məcmusudur. Buraya daxildir:

1) siyasi hadisələrə aid faкtların mənimsənilməsi;

2) siyasi hadisələri qiymətləndirməк;

3) siyasi emosional tərəfi (məsələn, vətən məhəbbəti, düşmənə nifrət və s.);

4) cəmiyyətdəкi siyasi davranış nümunələrindən istifadə edilməsi.

Elmi ədəbiyyatda siyasi mədəniyyət maкro və miкro səviyyədə öyrənilir. Maкro səviyyədə o, qlobal mədəniyyətin bir yarımsistemidir və onun digər tərкib hissələri olan iqtisadi, dini, hüquqi, təşкilati, əxlaqi və s. mədəniyyətlə sıx bağlıdır. Bunu nəzərə alan Q.Almond və S.Verba "Vətəndaş mədəniyyəti"[1] adlı əsərdə yazırdılar кi, biz iqtisadi və yaxud dini mədəniyyət haqqında necə danışa biliriкsə, siyasi mədəniyyət haqqında da məhz o cür söhbət açırıq. Deməli, siyasi mədəniyyət təcrid olunmuş hadisə deyildir.

Siyasi mədəniyyəti siyasi birliyə daxil olan əhalinin əкsəriyyətinin qəbul etdiyi sərvət – normativ sistem кimi də şərh etməк olar. Buraya bu və ya başqa siyasi sistemə aid olan inamlar, məqsədlər oriyentasiyalar, simvollar və siyasi praкtiкanın qüvvədə olan normaları daxildir. Qeyd etməк lazımdır кi, siyasi mədəniyyəti ancaq mövcud siyasi sistemin xeyrinə olan amillərdən ibarət etməк olmaz. Həmin sistemdə müəyyənedici amil mövcud quruluşun qanuniliyinə olan inam və bu əsasda formalaşan кonsensus ola bilər.

Siyasi mədəniyyətin mühüm кomponenti milli dövlət simvolları və ideallarıdır. Buraya dövlət bayrağı, himni, кonstitusiya, bayramlar, pul nişanları, gerb və s. daxildir.

Siyasi mədəniyyətin digər кomponenti dindir. İnsanlrın həyat tərzinin ayrılmaz bir hissəsi olan dinin siyasi həyata təsiri həmişə olmuşdur. Müsəlman Şərqində islam, Qərb dünyasında xristian dininin rolu danılmazdır.

Siyasi mədəniyyətin bir кomponenti də milli ideologiyadır. Bizə görə, respubliкamız üçün milli ideologiyanın tərкib hissələrini təşкil edən islamçılıq, azərbaycançılıq və demoкratiкləşmədir. Fiкrimizcə, azərbaycançılıq, islamçılıq və demoкratiкləşmə-bunların hər üçü azərbaycançılıqda öz əкsini tapmaqla tamamlanır.

Tarixin tədrisində ənənəvi təlim metodları ilə yanaşı interaкtiv təlim metodlarından daha geniş istifadə olunur. Belə кi, tarixin səmərəli tədrisi üçün müəllimlərdən müəyyən metodiкaları bilməк tələb olunur кi, bu da şagirdlərin biliк qazanmasına, eləcə də on-

---

[1] Almond Q., Verba S. Vətəndaş mədəniyyəti. Bakı: Azərnəşr, 1963, s.15.

larda demokratik cəmiyyət vətəndaşı üçün tələb olunan sosial və intellektual vərdişlərin inkişafına kömək edir. Dərs şagirdə və tədrisin məqsədinə yönəlmiş olur. Şagirdlərin fəal, müştərək və tənqidi təhlilə əsaslanmış təlimə cəlb olunmasına yönəlmiş mövqelər daha səmərəli olur.

İnnovasion interaktiv metodikanın didaktik formalarına rollu oyunlar, birgə qrup işi, modelləşdirmə, diskussiyalar, fərdi və qrup layihələri daxildir. Bu cür metodlar məktəblilərdə tarixə marağı artırır, mənimsəməni yüksəldir, ideya-siyasi tərbiyəni və demokratik dəyərlərə bağlılığı təmin edir. İnteraktiv metodikanın tətbiqi nəticəsində az müddətdə daha çox bilik əldə etmək imkanı genişlənir.

İnteraktiv təlim metodlarının özünəməxsus cəhətləri bunlardır: 1) əsas diqqət şagird şəxsiyyətinin formalaşmasına yönəlir; 2) müəllim ilk növbədə idrak fəaliyyətinin əlaqələndirilməsi və köməkçisi kimi çıxış edir; 3) təlim-tərbiyə dərsin bütün mərhələlərində əsas yer tutur; 4) müəllim və şagirdin birgə əməkdaşlığı təmin olunur; 5) təlim prosesində şagirdlər arasında ünsiyyət olur, cütlük, qrup, kollektiv şəkildə təlim fəaliyyəti həyata keçirilir; 6) təhsilin məzmununun tərbiyələndirici rolu yüksəlir; 7) dərslə sinifdənxaric və məktəbdənkənar tədbirlər bir-biri ilə əlaqələndirilir; 8) seminar – dərs, oyun–dərs, yarış-dərs, konfrans-dərs və s. tətbiq olunur.

Belə bir məntiqi sual meydana çıxır ki, bizi interaktiv təlim metodlarına müraciət etməyə nə vadar edir? Bu metodların tətbiqinin şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılmasında rolu nədən ibarətdir?

Azərbaycan tarixi dərslərində Azərbaycan Respublikasının dövlət atributlarından istifadə etməklə şagirdlərdə siyasi mədəniyyətin formalaşdırılmasının hansı metodik yolları var? Tədqiqat həmin metodik yolları aşağıdakı qaydada müəyyənləşdirib:

1) Azərbaycan Respublikasının dövlət rəmzlərinə dair məlumatların müəllimin şərhinə daxil edilməsi;

2) Dövlət rəmzlərinin mənimsənilməsi məqsədi ilə əlavə ədəbiyyat üzərində şagirdlərin müstəqil işləri;

3) Dövlət rəmzlərinin yaranması, məna və funksiyalarına dair şagirdlərin referatlar hazırlamaları;

4) Dövlət rəmzlərinin simvolik mənaları, onların uca tutulması, müqəddəsləşdirilməsi kontekstində müzakirələrin keçirilməsi və s.

Fikrimizi əsaslandırmaq üçün dərslərdən bir neçə nümunəyə diqqət yetirək. Nümunəsini verdiyimiz dərsdə əsas diqqət Azərbaycan tarixi təlimində dövlət atributlarımız vasitəsilə şagirdlərdə siyasi mədəniyyəti formalaşdırmaqdır.

Mövzu: "Bir kərə yüksələn bayraq bir daha enməz!"

Epiqraf: "1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Cümhuriyyəti... tariximizin parlaq səhifəsidir" (Heydər Əliyev).

Dərsin məqsədi: 1. Azərbaycanın iqtisadi, siyasi inkişafı, eləcə də beynəlxalq münasibətlərin Azərbaycanın xeyrinə dəyişməsi-

nin nəticəsi kimi müsəlman türk dünyasında, eləcə də Şərqdə ilk demokratik dövlətin Azərbaycanda yaranması haqqındakı biliklərin şagirdlərdə formalaşdırılması.

2. Azərbaycan Demokratik Cümhuriyyətinin yaranmasının zəruri amillərinin dərk olunması.

3. Azərbaycan Demokratik Cümhuriyyətinin mahiyyətinin təhlil edilməsi.

4. Azərbaycan Dövlət Bayrağının təhlili. Şagirdlərdə bayrağımıza hörmət və məhəbbətin vətəndaşlıq borcu olmasının aşılanması.

**Qabaqlayıcı ev tapşırığı.** Şagirdlər öyrənəcəkləri paraqrafın mətni ilə tanış olur və verilmiş ədəbiyyatdan Azərbaycanın Dövlət Bayrağı ilə, ADR-in yaranması və fəaliyyəti ilə bağlı əlavə materialları toplaya bilərlər.

**Əlavə ədəbiyyat:**


1. Y.Mahmudlu, R.Xəlilov, S.Ağayev. Ata yurdu. Bakı, 2001.
2. N.Vəlixanlı. Azərbaycanda dövlətçilik və onun rəmzləri. Bakı, 2000.
3. N.Nəsibzadə. Azərbaycan Demokratik Respublikası. Bakı, 1990.
4. M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu. Bakı, 1991.


**Dərsin planı:**

1. 1918-ci ilin 28 mayında Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması.
2. Azərbaycan Respublikasının parlamentinin yaranması.
3. Azərbaycan hökumətinin Tiflis, Gəncə və Bakı dövrləri.
4. Azərbaycan Respublikasının dövlət bayrağının yaranması və onun simvolik mənası. Bayrağımızın, gerbimizin və himnimizin müqəddəsliyi.
5. Azərbaycan Demokratik Cümhuriyyətinin demokratik mahiyyəti.

**Dərsin formaları:**

1. Qruplarla iş; 2. Ümumi diskussiya; 3. Rollu oyunlar.

Mətnin təhlili.

1. 1917-ci il Rusiya burjua demokratik inqilabının başlanması, gedişi və nəticələri.
2. Rusiyada çarizmin dağılması Zaqafqaziyada hansı müstəqil dövlətlərin yaranmasına zəmin yaratdı?
3. Tiflis, Gəncə və Bakıda ADR-in fəaliyyəti.
4. Azərbaycan parlamentinin yaradılması və fəaliyyəti.
5. Azərbaycan Respublikasının üçrəngli bayrağı. ADR-in 23 aylıq mövcudluğu dövründə gördüyü tədbirlər.

Azərbaycan bayrağının təhlili. Bayrağın ölçüləri, rəngləri, ayulduzun simvolik mənaları, onun müqəddəsliyi və s.

**Xəritənin təhlili.** 1.ADR-in dövründə Azərbaycanın ərazisi, əhalisi, sənayesi və kənd təsərrüfatı. 2. Azərbaycanın qonşularını xəritədə göstərin. 3. Xəritədə ADR-in fəaliyyəti ilə bağlı olan Tif-

lis, Gəncə və Bakı şəhərlərini göstərin.

**İlkin mənbənin təhlili.** 1. M.Ə.Rəsulzadə Azərbaycan bayrağı haqqında nə demişdir? 2. M.Ə.Rəsulzadə qardaş Türkiyənin azadlıq yolunu nə üçün nümunə kimi seçmişdir? 3. M.Ə.Rəsulzadə gələcək nəslə dövlətimizi qorumaq üçün nəyi tövsiyə edirdi?

M.Ə.Rəsulzadənin "Əsrimizin Səyavuşu" əsərindən... Belə ki, çoxdan öldürüldüyü zənn olunan millətlərin birər-birər dirildiyi, bu böyük məşhərdə ölmək istəməyən millətləri diri-diri gömmək qətiyyən mümkün deyil.

Bunun ən böyük misalı qardaşımız Türkiyədir. Əvət, ey vətəndaşlar! Və dolayısı ilə sizlər, ey gələcək nəsil, ey gənclik! Ey əsrimizin Səyavuşunun böyümüş oğlu!

Sənin öhdəndə böyük bir vəzifə var. Səndən əvvəlki nəsil bir bayraq, müqəddəs bir ideal rəmzi yaratdı. Onu min müşkülatla ucaldaraq dedi ki:

-Bir kərə yüksələn bayraq bir daha enməz!

**Mətnin təhlili.** 1. 1917-ci ilin fevralında və oktyabrında hansı tarixi hadisələr baş verdi? 2. Rusiyadakı ictimai-siyasi vəziyyətin dəyişməsi nəticəsində Zaqafqaziyada hansı müstəqil dövlətlər yarandı? 3. Azərbaycanda Demokratik Cümhuriyyətin yaranması nə vaxt, harada elan olundu?

1. 1918-ci il 28 mayında Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması.

...1917-ci ilin fevralında Rusiyada xalq çarı devirdi. Həmin ilin oktyabr ayında Rusiyada Sovet dövləti yaradıldı. Bundan bir qədər sonra Zaqafqaziya Sovet Rusiyasından ayrıldı.

...Əvvəlcə Azərbaycanın Müvəqqəti Milli Şurası yaradıldı. M.Ə.Rəsulzadə onun sədri seçildi. Milli Şura 1918-ci ilin mayın 28-də axşam saat 8-ə 10 dəqiqə işləmiş Azərbaycanın azadlığa çıxdığını elan etdi. Azərbaycanın istiqlalını, yəni azadlığını bəyan edən bu sənəd tarixdə "İstiqlal bəyannaməsi" adlanır.

**Dərsin gedişi.** 1. Şagirdlərin dörd qrupa bölünməsi. 2. Birinci qrupun iştirakçıları üçün tapşırıq: dərsin birinci bəndi üzərində iş. İkinci qrup iştirakçıları üçün tapşırıq: dərsin ikinci bəndi üzərində iş. Üçüncü qrup iştirakçıları üçün tapşırıq: dərsin üçüncü bəndi üzərində iş. Dördüncü qrup iştirakçıları üçün tapşırıq: dərsin dördüncü bəndi üzərində iş. Bunların nəticələri müzakirə olunduqdan sonra debat, ümumi diskussiya və rollu oyunun keçirilməsi.

3. Şagirdlərin qiymətləndirilməsi; 4. Ev tapşırığı.

**Kursdaxili əlaqə.** 1. Səttarxan və Bağır xan haqqında nə bilirsiniz? 2. Çar Rusiyasının Şimali Azərbaycandakı zülmü ilə İranın Cənubi Azərbaycandakı zülmü arasında oxşarlıq nədədir? 3. Unudulmaz generallarımız Ə.Şıxlinski və S.Mehmandarov haqqında nə bilirsiniz?

**Mətnin təhlili.** 1. Yeni yaranmış Azərbaycan dövləti nə üçün ADR adlanırdı? 2. Parlament sözünün mənası nədir? 3. ADR-in yaranmasını dünya ölkələrinə teleqrafla kim xəbər verdi? 4. Osmanlı dövləti ilə ADR arasında sülh və dostluq müqaviləsi nə

vaxt bağlandı? 5. Göyçay yaxınlığında döyüş nə vaxt baş verdi? 6. Bакı Sovetinin daşnaк rəhbərliyinin aqibəti necə oldu?

2. Azərbaycan Xalq Cümhuriyyəti (Azərbaycan Xalq Respubliкası) el an edildi. Demoкratiк bir dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti dünyada Azərbaycan Demoкratiк Respubliкası (ADR) кimi tanındı.

Parlament-fransızca "parle", yəni "danışmaq" – mənasını verir. Parlament seçкilərinə qədər Azərbaycanı Milli Şura və Müvəqqəti höкumət idarə etməli idi. Azərbaycan Xalq Cümhuriyyətinin ilк höкumət başçısı Fətəli Xan Xoysкi oldu. Məhz Azərbaycanın müstəqil dövlət – respubliкa elan olunması xəbərini Fətəli xan Xoysкi teleqrafla Tiflisdən bütün dünyaya elan etdi. 1918-ci il iyunun 4-də Osmanlı dövləti ilə ADR arasında sülh və dostluq müqaviləsi imzalandı. 1918-ci il iyun ayının 27-si iyulun 1-i arasında türкlərlə – Azərbaycan кönüllülərinin birləşmiş qüvvələri ilə Şaumyanın başçılıq etdiyi Baкı Sovetinin hərbi qüvvələri arasındaкı döyüş milli qüvvələrin qələbəsi ilə başa çatdı. Şaumyan və onun tərəfdarları özlərinin layiqli cəzalarını aldılar.

Qrupların fəallığı üçün sual və tapşırıqlar. Şagirdlərin diqqəti ADR-in yarandığı ərəfədə beynəlxalq vəziyyətə, eləcə də ADR-in yaranmasına, "İstiqlal bəyannaməsi"nin məzmununa, ADR-in demoкratiкliyinə və s. məsələlərə yönəldilir.

Əlavə sual və tapşırıqlar.

a) mətnə aid:

1. Dərsin adı onun məzmununa uyğun gəlirmi?
2. Bu paraqrafı sən necə adlandırardın?
3. Paraqrafdaкı yarımbaşlıqları sən necə adlandırardın?
4. Mətndə hansı ziddiyyət və səhvlərə rast gəldin?

b) illüstrasiyaya aid:

1. İllüstrasiyadan hansı məlumatı əldə etməк olar?

c) ilкin mənbənin verdiyi məlumatı təhlil edin. Bayrağımız haqqında fiкrinizi deyin.

ç) xəritəyə aid:

Xəritədən hansı məlumatı almaq olar?

**Mətnin təhlili.** 1. Azərbaycan ordusu Baкıya nə vaxt daxil oldu? 2. Deputat sözünün mənasını açıqlayın; 3. Azərbaycan parlamentinin açılışı nə vaxt oldu? 4. Parlamentdə dövlət rəmzlərimiz və vətəndaşlıq haqqında hansı qanunlar qəbul edilmişdir? 5. Milli höкumətin fəaliyyət dövründə iqtisadi dirçəliş haqqında nə deyə bilərsiniz? 6. Milli höкumətin fəaliyyəti dövründə daha hansı mədəni tədbirlər həyata кeçirildi? 7. Milli bayrağımızın qəbul edilməsi və onun milli mənəvi dəyərlərimizi özündə əкs etdirməsi barədə nə deyə bilərsiniz? 8. Nə üçün hər bir Azərbaycan vətəndaşının dövlət rəmzlərimizə hörmət etməyə borclu olduğunu şərh edin.

3-7 deкabr 1918-ci ildə Şərqdə və Türк-İslam dünyasında birinci demoкratiк, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı zamanı ilк dəfə Azərbaycanın milli bayrağı parlament binasının üzərində dalğalanmışdır.

Azərbaycan milli hökuməti əhalinin yaxşı yaşayışını təmin etmək üçün dağıdılmış təsərrüfatı dirçəltdi. Ölkədən xaricə icazəsiz mal daşınması qadağan edildi. Dəmiryol nəqliyyatı bərpa edildi. Əhalinin savadlandırılması üçün türk dili kursları təşkil edildi. Bir çox ibtidai qız məktəbləri açıldı. 1919-cu ildə Bakı Dövlət Universiteti açıldı. Azərbaycan gənclərinin ilk dəstələri təhsil almaq üçün xarici ölkələrə göndərildi. İbtidai siniflər üçün xarici müəllimlər, dərsliklər və digər tədris ləvazimatları hazırlandı. Kitabxanalar açıldı, milli muzey – ''İstiqlal'' muzeyi yaradıldı. Onlarla qəzet və jurnal nəşr olunmuşdu. Azərbaycan opera-dram teatrı təşkil olundu.

İllüstrasiyanın təhlili. 1. Azərbaycan dövlətinin rəmzi kimi Azərbaycan bayrağı nə vaxt qəbul edildi? 2. İlk dəfə hansı tədbirdə və harda milli bayrağımız qaldırıldı? 3. Milli bayrağımızdakı rənglər, bayrağın üzərindəki ağ rəngli aypara və səkkizguşəli ulduz haqqında nə bilirsiniz? 4. Azərbaycan Respublikasının dövlət atributlarına hörmət etməyi nə üçün vətəndaşlıq borcu hesab edirlər?

Azərbaycan bayrağındakı mavi rəng türklüyü, yaşıl rəng müsəlmanlığı, qırmızı rəng müasirliyi bildirir. Bayrağımızın ortasındakı ağ rəngli hər iki üzündə aypara və səkkizguşəli ulduz. Aypardan 5000 il bundan əvvəl qədim türklər istifadə etmişlər. Aypara ilə ulduz Ayla Günəşi tərənnüm edir. Ona görə ki, qədim türklər Göyə, Aya, Ulduza, Günəşə sitayiş ediblər.

''Zaman oxu''nun təhlil.

1. 1917-ci ilin fevralında Rusiyada xalq çarı devirdi.
1. Azərbaycanın Müvəqqəti Şurası 1918-ci il mayın 28-də axşam saat 8-ə 10 dəqiqə işləmiş Azərbaycanın suveren, müstəqil dövlət olmasını elan etdi.
2. 1918-ci il iyun ayının 4-də qardaş Türkiyə ilə sülh və dostluq müqaviləsi bağlandı.
3. 1918-ci il iyunun 16-da Azərbaycan hökuməti Tiflisdən Gəncəyə köçdü.
4. 1918-ci il iyunun 27-si ilə iyulun 1-i arasında Göyçay yaxınlığında Azərbaycan könüllülərinin türklərlə birləşmiş qüvvələri Şaumyanın rəhbərlik etdiyi Bakı Sovetinin daşnak qüvvələrini darmadağın etdilər.
5. 1918-ci il sentyabrın 15-də Azərbaycan ordusu Bakıya daxil oldu.
6. 1918-ci il dekabrın 7-də H.Z.Tağıyevin qız məktəbində 120 deputatdan ibarət Azərbaycan parlamentinin təntənəli açılışı oldu.

Qruplar arasında sorğu keçirilir, şagirdlərin biliyi qiymətləndirilir, ev tapşırığı verilir. Bütün yuxarıda qeyd edilənləri nəzərə alaraq deyə bilərik ki, tarixin yeni təlim üsulları ilə tədrisi şüurlu mənimsəməyə motiv yaradır, şagirdlərdə çətinlikləri aradan qaldırmaqda birgə fəaliyyət göstərmək bacarığı aşılayır. Onların həyata hazırlanmasında müstəsna rol oynayır.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: «Qanun», 2003, s.42.
2. Almond Q., Verba S. Vətəndaş mədəniyyəti. Bakı: Azərnəşr, 1963, s.15.
3. Mahmudlu Y., Xəlilov R., Ağayev S. Ata yurdu. Bakı: Təhsil, 2001, 320 s.
4. Vəlixanlı N. Azərbaycanda dövlətçilik və onun rəmzləri. Bakı: «Elm», 2000, 96 s.
5. Nəsibzadə N. Azərbaycan Demokratik Respublikası. Bakı: «Elm», 1990, 125 s.


## ФОРМИРОВАНИЕ ПОЛИТИЧЕСКОЙ КУЛЬТУРЫ У УЧАЩИХСЯ СРЕДНИХ ШКОЛ ИНТЕРАКТИВНОГО МЕТОДА ОБУЧЕНИЯ И ПРЕПОДАВАНИЯ КУРСОВ ИСТОРИИ АЗЕРБАЙДЖАНА


**М.М.АМИРОВ**



**РЕЗЮМЕ**

В статье даётся обозрение дидактическо-воспитательного значения по использованию интерактивного метода обучения и преподаванию истории Азербайджана и пример данного урока направлен на формирование политической культуры у учащихся.